UOT 32(092)

# AZƏRBAYCANIN TOPONİM ƏSASLI ETNONİMLƏRİNİN AREAL XÜSUSİYYƏTLƏRİ

**Zəminə Xosrov qızı Gülüstani**
Mingəçevir Dövlər Universiteti
zamina.gulustani@mdu.edu.az

***Xülasə:*** *Azərbaycan xalqının formalaşmasında yaxından iştirak edən onlarla qəbilə, tayfa və nəsil adlarına folklorumuzun müxtəlif janrlarında da təsadüf olunur. Onların kimliyi, birləşmələrinin adları, yaşayış tərzi, kosmoqonik görüşləri, yayılma arealı, onların həyat tərzi, təfəkkürləri, psixoloji anlamlarının xalqın tarixi və dünyagörüşünün başlanğıcı kimi öyrənilməsi vacib ümumbəşəri dəyərlərdəndir. Dilçilik baxımından belə bir araşdırma aparılması hadisələrin mahiyyətini açmaq baxımından dolğun nəticələr verə bilmədiyindən arxeoloji, toponimik, tarixi tədqiqatlardan və eləcə də bədii yaradıcılıq sahələrinin köməyindən istifadə etmək lazım gəlir.*

***Açar sözlər:*** *xalq, tayfa, areal, toponim, etnonim, etnotoponim*

## Giriş

Etnonim – hər hansı etnik qrupun, tayfa, xalq və millətin adını bildirən dil vahidi, etnonimika isə bütöv bir ərazinin etnonimlər toplusudur [1, s. 153].

Azərbaycan etnonimlərinin öyrənilməsində etnotoponimlərdən də geniş istifadə olunur. Azərbaycan dilinin, ümumiyyətlə, türk dillərinin başqa xalqların tarixində, məskunlaşdığı ərazilərdə qeydə alınmış mədəniyyət izlərinin də araşdırılması, elmi tədqiqata cəlb edilməsi mühüm məsələlərdəndir.

Tayfa, qəbilə və xalqların tarixinin öyrənilməsində toponimlərin araşdırılması xüsusi əhəmiyyətə malikdir. Müxtəlif ictimai-siyasi hadisələrlə bağlı, ayrı-ayrı tayfalar köçdükləri yeni yaşayış məskənlərinə öz ana dillərində adlar veriblər. Həmin adların tarixinin öyrənilməsində toponimlərin araşdırılması önəmli əhəmiyyət kəsb edir. Müxtəlif ictimai-siyasi hadisələrlə bağlı, ayrı-ayrı tayfalarda tarixin izləri öz əksini tapmışdır. Odur ki, coğrafi adlarla bağlı olan bir sıra qəbilə, tayfa adları təkcə Azərbaycan ərazisində deyil, digər dövlətlərin ərazi və tarixi ilə əlaqəli şəkildə öyrənilməlidir. Bu, tarixən müəyyən ərazidə məskunlaşmış əhalinin etnik tərkibini daha dərindən və ətraflı şəkildə öyrənməyə çox kömək edir.

Müxtəlif tayfa və xalq adlarını əks etdirən adlar, xüsusən etnotoponimlər xalqın tarixini öyrənmək üçün daha qiymətlidir, çünki xalqın müxtəlif tarixi dövrlərdə müxtəlif etnolinqvistik etnotoponimlər aid olduğu xalqın, tayfanın etnik mövcudluğunu əks etdirən əsas vasitələrdən biridir.

Etnotoponimiya qruplar və etnik birləşmələrlə mövcud olmuş əlaqələrini müəyyən etməyə imkan verir.

## Cənubi Azərbaycan etnonimlərinin tədqiqi

Hər bir xalqın mənşəyinin üzə çıxarılması və onun formalaşmasında müxtəlif etnik komponentlərin iştirakı probleminin həllində, "xalqın ictimai həyatı, orada məskunlaşmış xalqın dili ilə sıx surətdə bağlı olan" digər elmlərlə yanaşı, toponimikanın çox böyük rolu vardır. Bununla bağlı məşhur "Gülüstani-İrəm" əsərində A.Bakıxanov yazır: "Əgər ölkənin qəbilələri, binaları və qədim asarı geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır [2, s. 62].

Məlum olduğu kimi, xalqların formalaşmasında ayrı-ayrı tayfalar və tayfa birləşmələrinin əhəmiyyətli rolu olmuşdur. Lakin xalq tayfaların, sadəcə olaraq, birləşməsi deyil, fərqli-fərqli etnik tərkibə malik olan müxtəlif tayfaların tarix boyunca bir-biriləri ilə qaynayıb-qarışması nəticəsində formalaşan əhalidir.

Toponimik tədqiqat bəzən kiçik bir kəndin əhalisinin keçmişdə hansı tayfaya və xalqa mənsub olduğunu aydınlaşdırmağa imkan verir. Azərbaycan xalqı və onun dilinin formalaşmasında, inkişafında türkdilli xalqlar və tayfaların həlledici rol oynadığı məlumdur.

Azərbaycanın ayrı-ayrı zonaları və rayonları haqqında yazılmış əsərlərdə, məcmuə və arxiv sənədlərində Azərbaycandakı tayfaların və onlara mənsub tirələrin adları, onların bəzilərinin mənşəyi, etnik tərkibi haqqında da çoxlu məlumata rast gəlmək olur.

A.Bakıxanov “Gülüstani-İrəm” adlı tarixi əsərində, bir sıra toponim və etnonimlərə toxunmuş, onların mənşəyinə dair qiymətli fikirlər irəli sürmüşdür. A.Bakıxanovun fikrincə, Abşerondakı Zığ kəndinin adı qədim mənbələrdəki “Zed” tayfasının adı ilə, Alpan kəndinin adı Albaniya ilə əlaqədardır.

S.B.Aşurbəyli Bakı toponimi haqqında danışarkən qeyd edir ki, Bakı toponimi “Bak” tayfasının adı ilə bağlıdır. Ə.Hüseynzadə isə “Bakı” toponiminin bak tayfasının adından yaranmasını inkar edərək göstərir ki, “Bakı” sözü “yüksəklik”, “təpə” mənasını bildirir. A.Bakıxanov yazır: “Nəinki əsrlər, hətta min illər belə, bu ölkənin bir çox yerlərinin və tayfalarının ilk adlarını məhv edə bilməmişdir” [2, s. 73].

Qədim xalqların məskən saldıqları yerləri, yayıldığı ərazini məhz toponimlərin köməyi ilə dəqiqləşdirmək mümkündür. A.Bakıxanovun “Gülüstani-İrəm” əsərində *qara-börk, quz, kəngərli, lazlar, qaraqoyunlu, qırxlı, sor-sor* və başqa tayfalar haqqındakı fikirləri də elmi şəkildə əsaslandırılmışdır. Maraqlıdır ki, həmin tayfaların adları Azərbaycan toponimiyasında indi də mühafizə olunmaqdadır və onların əksəriyyətinin türk mənşəli sözlər olduğu qeyd edilir.

M.H.Vəliyevin Azərbaycan toponimiyasına aid ilk əsərində Azərbaycan ərazisində mövcud olmuş tayfalar – *xəzərlər, hunlar, quşanlar və bulqarlar* haqqında söhbət açılır. *Qazax, Şıxlı, Salahlı, xələfli, şamlı, kəngərli, baharlı, tatarlı, xalac, emir, dəmirçi, bayat* və s. tayfalar, onların mənşəyi və məskən saldıqları yerlər müəyyənləşdirilir.

Tayfa və nəsil adları vasitəsilə formalaşan kənd adları tarixi baxımdan daha qədim hesab edilir. Belə adları çox vaxt etimoloji cəhətdən təhlil etmək də mümkün olmur. Bununla belə, toponimik tədqiqatlarda tayfa və nəsil adları ilə bilavasitə bağlı olan yer adlarının müəyyənləşdirilməsi zamanı bəzən müqayisələr aparmaq zərurəti yaranır. Bəzi rayonlarda tayfa və nəsil adları əsasında formalaşan toponimik vahidlərdən aşağıdakılara təsadüf olunur: *Papravənd kəndi, Şıxavənd kəndi, Zəngilan kəndi, Xındırıstan kəndi, Üçoğlan kəndi, Sofulu kəndi (Ağdam rayonu), Şirvanlı kəndi (Bərdə rayonu), Qurdlar kəndi (Ağdam rayonu) və s.* Bu toponimləri etimoloji cəhətdən izah etmək çətindir. Lakin Papravənd, Şıxavənd, Muğanlı, Sofulu, Boyəhmədli, Şirvanlı, Qurdlar kimi yer adları haqqında bəzi mülahizələr söyləmək mümkündür. Papravənd və Şıxavənd kəndlərində birinci tərəflər atribut kimi çıxış edir və nəslin, tayfaların adını, ikinci tərəfi isə kənd, yaşayış yeri mənasını ifadə edir.

Muğanlı və Şirvanlı kəndlərində yaşayan insanların Muğanlılar və Şirvanlılar nəsllərinə mənsub olması ehtimalını söyləmək mümkündür. “Sofulu” isə qədim tayfalardan birinin adı kimi qalmışdır.

“*Qurdlar*” da qədim nəsil və tayfa adı bildirən toponimlərdən biridir. Azərbaycan ərazisində buna uyğun “Qurdlu körpü, Qurdlar nəsli” və s. kimi toponimlər mövcuddur.

Şifahi xalq yaradıcılığının əsas janrlarından biri olan dastan janrında da bir çox etnik adlar öz əksini tapmışdır. Bunların bir qismi antrotoponimlərin tərkib hissəsi kimi, bir qismi toponim kimi, *bayat, qayı, oğuz, tat, qoyunlu, ağqoyunlu, qaraqoyunlu, cəngilər, təkcə-türkmən, özbək, ərəb, əcəm, türk, fars, hind, urus (rus), firəng, qıpçaq, gürcü, erməni, ləzgi, kürd, miskinli, muradbəyli, dirili, ayrım və s.* isə sırf etnonim kimi işlənmişdir.

Tarixən hər bir dövrün hadisələri ilə bağlı bayatılar yaranmışdır. Xalqın xarici işğalçılara qarşı mübarizəsini əks etdirən bayatılarda bir sıra etnik adların da işləndiyini görürük. Bayatılarda və bayatı tipli digər şeir nümunələrində etnik adlar müəyyən məqsədlə işlənmişdir. O cümlədən “Aşıq gəncəli, dağlar”, “Aşıq qaradağlıdır” tipli misralarla başlayan bir çox bayatılarda işlənən *qarabağlı, ceyrançöllü, dərbətdi (dərbəndli), şirvanlı, qaradağlı, gəncəli* etnik adları toponim mənşəlidir.

Nisbətən kiçik həcmli digər folklor nümunələrində isə belə etnik adlar, demək olar ki, yox dərəcəsindədir.

**Toponimlərdə yaşayan etnonimlər**

Bayatılarda bir çox etnotoponimə də müraciət olunmuşdur. *Kəsəmən, Corat, Goran, Qazax, Xaldan, Təklə, Tərtər, Qaraman, Muğan, Gürcüstan, Bazar* kimi etnonim mənşəli coğrafi adlarla yanaşı, *Azatdar və Bayatlar* etnotoponimlərinə də təsadüf olunur.

Oğuz tayfa birliyinin tərkib hissəsi olan *bayatlar/boyatlar* türk xalqlarının formalaşma tarixində mühüm rol oynamışdır. Bu tayfanın adı və onların Azərbaycana gəlişi haqqında elmi ədəbiyyatlarda müxtəlif fikirlər mövcuddur. Belə ki, "bayatlar"ın Azərbaycanda yayılmasını gah XI əsr səlcuq, gah da XIII əsr monqol istilaları ilə bağlayır, "bayat" sözünü isə "Allah", "xoşbəxt" , "varlı", "köhnə", "adlı-sanlı", "məşhur" və s. kimi izah edirlər.

Oğuzların *bayat/boyat* tayfasının adını əks etdirən Bayat qalasının xarabalıqları Qarabağ düzündəki Ağcabədi rayonunun Boyat kəndi ərazisindədir. Ucar, Neftçala və Şamaxı rayonlarında Boyat, Dəvəçi rayonunda Uzun Boyat və Sincan Boyat adlı yaşayış məntəqələri var. Cənubi Azərbaycanda Boyat, Boyatlar, Bayatansuxtə, Bayatlı, Qızıltəpəbayat (Zəncan), İranda Qışlaqbayat, Bayatan (Lurestan), Əlibayat (Mərkəzi İran) və s. qeydə alınmışdır [3, s. 89-90].

Türkdilli xalqların həyat tərzi ilə bağlı olaraq onlara tez-tez yurd, düşərgə salmaq, çadır qurmaq lazım gəlirdi. Folklor ədəbiyyatında müraciət olunan etnotoponimlərdən biri də *"Təklə"*dir. Mənbələrdə *təkə /təkəli /təkəlu /təklə /təhlə* variantlarında qeydə alınmış bu tayfa qızılbaşların sağ cinahda olan tayfalarından biri idi. Lakin I Şah Təhmasib dövründə törətdikləri əməllərinə görə həmin tayfanın qətlinə fərman verilmişdi. Bu münasibətlə tayfanın bir hissəsi Türkiyəyə köç etmişdi. O zaman Anadolunun cənubunda – Alaniyadan qərbdə və Qocaçaydan şərqdə yerləşən torpaqlar "Təkə eli" adlanırdı. Lakin 1540-cı ildə bu tayfanın əmirlərindən Çərkəs Həsənin oğlu Qazi xan Təkəlu Şah Təhmasibin itaətini qəbul etmiş, şahsevənlərin tərkibinə daxil olunmuşdu. Mənbələrdə Qazi xan Təklə adı ilə də tanınan həmin şəxs sonralar Şirvanın, Bakı, Salyan və Mahmudabad şəhərlərinin hakimi olmuşdu.

Azərbaycan təkəlilərinin adı ilə bağlı Təklə (Ağsu, Cəlilabad, Kürdəmir, Qobustan, Masallı rayonlarında kənd), Təklə Mirzəbaba (Qobustanda kənd) oykonimləri, Təklə dərəsi (Masallı), Təklə dağı, Təklə təpəsi (Cəlilabad) oronimləri vardır. 1933-cü ildə Xızı rayonunda Təkəli, Quba rayonunda Təkəşıxı, Bərdə rayonunda Birinci Təklə, Gürcüstanda, Qazaxıstanda Təkəli adlı yaşayış məntəqələri qeydə alınmışdır. Azərbaycan bayatılarında bu etnik addan törəmiş toponimlərin yalnız "Təklə" variantı işlənmişdir. [3]

Səlcuqilərin rəhbərliyi altında XI əsrin ortalarında oğuzların qərb istiqamətindəki yürüşü istila olduğu qədər, həm də miqrasiya xarakteri kəsb etmişdir. Oğuz-Səlcuq imperiyasının yaranması Ön Asiyanın siyasi və etnik xəritəsinin dəyişməsi və türk etnomədəni təsirinin güclənməsi ilə nəticələndi. Təkcə Şimali Azərbaycan etnotoponimiyasında 24 oğuz tayfa adından 18-i öz əksini tapdı. Q.Qeybullayevin araşdırmalarında da bu fikrə rast gəlinir. Ə.Hüseynzadənin Oğuz qəbilələri ilə bağlı tədqiqatlarına əsasən, oğuzlara aid edilən tayfalardan 9-nun adının Azərbaycan onomastikasında yer aldığını qeyd etmişdir.

Göstərilən proseslərin nəticələrinin "Dədə Qorqud"un müxtəlif dillərdə olan digər tarixi mənbələrin məlumatları ilə üst-üstə düşməsini xüsusi olaraq qeyd edilməlidir. Azərbaycana XI əsrdə gəlmiş oğuzlar və XII-XIII əsrlərdə gəlmiş qıpçaqlar artıq buranın yerli əhalisinə çevrilmiş, hunlarla olan etnik yaxınlığını – dillərini məhz türk dillərinin heç birində Azərbaycan türkcəsindəki qədər dialekt və şivənin olmaması təsdiqləyir. Azərbaycan türkcəsində hər hansı bir substrat qatının olmaması da dilin türk özəyinin çox güclü olduğuna dəlalət edir. XIII-XIV əsrlər monqol istilaları dövründə gedən etnosiyasi proseslər türk özünüdərkinin güclənməsinə və dərinləşməsinə daha çox təsir etmişdir [4, s. 45-46].

Göstərilən dövrlərdə Azərbaycanda bir çox tayfa və tayfa birlikləri mövcud olmuşdur. Bu birləşmələrə *padarları, şahsevənləri, ayrımları* və s.-ni, həmçinin onların ayrı-ayrı tirələrini aid etmək olar. Hələ XIII-XIV əsrlərdə Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən olan

Azərbaycanda ədəbi dil, din birliyi, özünəməxsus adət-ənənələr, ayrı-ayrı qruplar arasında etnosdaxili proseslər güclənirdi.

**Nəticə**

Azərbaycan xalqının tarixi müqəddəratının müəyyənləşməsində onun coğrafi və geosiyasi mövqeyi mühüm rol oynamışdır. Onların kimliyi, birləşmələrinin adları, yaşayış tərzi, kosmoqonik görüşləri, yayılma arealı, onların həyat tərzi, təfəkkürləri, psixoloji anlamlarının xalqın tarixi və dünyagörüşünün başlanğıcı kimi öyrənilməsi vacib ümumbəşəri dəyərlərdəndir. Dilçilik baxımından belə bir araşdırma aparılması hadisələrin mahiyyətini açmaq baxımından dolğun nəticələr verə bilmədiyindən arxeoloji, toponimik, tarixi tədqiqatlardan və eləcə də bədii yaradıcılıq sahələrinin köməyindən istifadə etmək lazım gəlir.

Əlverişli təbii iqlim şəraiti, landşaft müxtəlifliyi burada hələ qədim zamanlardan təsərrüfat meylləri, yaşayış tərzi və etnopsixoloji xüsusiyyətləri ilə bir-birindən fərqlənən etnik birliklərin məskunlaşmasını şərtləndirmişdir. Bu etnik birləşmələrdə yalnız genetik cəhətdən qohum etnoslar deyil, həm də dil cəhətdən fərqlənən birləşmiş etnoslar da iştirak etmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I cild (2 cilddə). Bakı: Azərbaycam Milli Elmlər Akademiyası, 2019. 280 s.

2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1951, 302 s.

3. Xalıqov F. Azərbaycan onomalogiyası. Bakı: Müəllim, 2009, 242 s.

4. Bayramov A. “Kitabi-Dədə Qorqud” toponimləri və Qafqaz arealı. Bakı: Nurlan, 2017, 405 s.

## AREAL CHARACTERISTICS OF TOPONIMICAL ETHNONYMS OF AZERBAIJAN

**Z.Gulustani**
Mingachevir State University

***Abstract:*** *In various genres of our folklore, there are names of dozens of clans, tribes and generations that were directly involved in the formation of the Azerbaijani people. The study of their identity, the names of their associations, their way of life, their cosmogonic meetings, their distribution area, their way of life, their thoughts and their psychological significance as the beginning of the history and worldview of the people is one of the important universal values. Since carrying out such research from the point of view of linguistics cannot give full results in terms of revealing the essence of events, it is necessary to resort to the help of archaeological, toponymic, historical research, as well as the spheres of artistic creativity.*

***Keywords:*** *people, tribe, area, toponym, ethnonym, ethnotoponym*

## АРЕАЛЬНАЯ ХАРАКТЕРИСТИКА ТОПОНИМИЧЕСКИХ ЭТНОНИМОВ АЗЕРБАЙДЖАНА

**З.Х.Гюлустани**
Мингячевирский государственный университет

***Резюме:*** *В различных жанрах нашего фольклора встречаются имена десятков родов, племен и поколений, принимавших непосредственное участие в формировании азербайджанского народа. Изучение их самобытности, названий их ассоциаций, их образа*

*жизни, их космогонических встреч, их ареала распространения, их образа жизни, их мыслей и их психологического значения как начала истории и мировоззрения народа является одним из важных общечеловеческих ценностей. Поскольку проведение подобных исследований с точки зрения языкознания не может дать полных результатов в плане раскрытия сути событий, необходимо прибегнуть к помощи археологических, топонимических, исторических исследований, а также сфер художественного творчества.*

***Ключевые слова:*** *народ, племя, ареал, топоним, этноним, этнотопоним*

**Elmi redaktor: fil.f.d., dos. N.Manafov**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 14.02.2023**
**Çapa qəbul edilib: 21.02.2023**